UOT 94; UOT 32:93/94

SAMUDƏ İSKƏNDƏROVA
Bakı Dövlət Universitetinin müəllimi
samudaiskandarova@bsu.edu.az

İSLAM KONFRANSI TƏŞKİLATINDAN İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATINA DOĞRU

DOI: https://doi.org/10.36719/2708-065X/103/95-99

İslam Konfransı Təşkilatının İslam Əməkdaşlıq Təşkilatına çevrilməsi yeni xarici siyasət paradiqmasının formalaşması üçün mühüm addım idi. Hər bir dövlətin İƏT-da fəal fəaliyyəti ölkənin sabit inkişafının əsas elementinə çevrilir və beynəlxalq münaqişələrin həllinə imkan yaradır.

Açar sözlər: xarici siyasət, müasir beynəlxalq münasibətlər, İslam Əməkdaşlıq Təşkilatı, inteqrasiya.

Giriş. XXI əsrin əvvəlləri beynəlxalq münasibətlərdə, dövlətlər daxilində və insanların həyatında əvvəlki sistemin kökündən dağılması, bir-birini inkar edən hadisələr və tendensiyalar ilə xarakterizə olunur. Xaotiklik və qeyri-sabitlik, qeyri-müəyyən perspektivlər dünya dövlətlərini dünya birliyində öz rolu və yeri haqqında düşünməyə, reallığa uyğunlaşmaq, öz varlığını təmin etmək və əsas maraqlarını həll etmək yollarını axtarmağa məcbur edir.

Müasir dünya ziddiyyətli bir dünyadır. Bir tərəfdən müsbət tendensiyalar və hadisələr baş verir: böyük dövlətlər arasında nüvə qarşıdurması və iki antaqonist düşərgəyə bölünmə başa çatıb, Avrasiyanın, Latın Amerikasının və digər regionların bir çox xalqları demokratiya və bazar islahatları yoluna qədəm qoyublar, bəşəriyyətin həyat tərzi dəyişir, qabaqcıl texnologiya, vahid informasiya məkanı yaradılır, beynəlxalq əlaqələr şaxələndirilir. Dünyanın müxtəlif yerlərində inteqrasiya birlikləri getdikcə daha çox çəki qazanır və qlobal iqtisadiyyat, hərbi təhlükəsizlik, siyasi sabitlik və sülhün qorunmasında mühüm amilə çevrilir.

Əsas mətn. BMT sistemində beynəlxalq təsisatların, regional beynəlxalq təşkilatların, assosiasiyaların sayı və funksiyaları artır. Bəşəriyyətin siyasi həyatının ardınca iqtisadi sferanın qloballaşması baş verir. Sosial-iqtisadi tərəqqi üçün yeni imkanların artması, insanlarla təmasların genişlənməsi ilə yanaşı, yeni təhlükələr yaranır, iqtisadiyyatdan asılılıq və irimiqyaslı maliyyə böhranları riski artır, iqtisadi disbalans daha da pisləşir. Afrikanın, Yaxın və Orta Şərqin bir sıra dövlətlərində hakimiyyət uğrunda mübarizə siyasi, sosial-iqtisadi qeyri-sabitliyə, bir sıra ölkələrdə isə nəinki uzun sürən iflasa, həm də dövlətlərin iqtidarlarının əhalini təmin edə bilməməsi aclığa və humanitar fəlakətə gətirib çıxarır.

Beynəlxalq aləmdə ziddiyyətlərin yumşaldılması, siyasi, sosial-iqtisadi təhlükəsizliyə səbəb ola biləcək mümkün təhdidlərin neytrallaşdırılması və aradan qaldırılması, humanitar və ekoloji təhlükələrin neytrallaşdırılması və aradan qaldırılması beynəlxalq təşkilatların fəaliyyətinin əsas vəzifəsinə çevrilir və müəyyən dərəcədə onları öz fəaliyyətlərini radikal şəkildə yenidən qurmağa, gələcək inkişaf üçün optimal vektorlar axtarmağa sövq edir.

2011-ci ilin iyun ayından İslam Əməkdaşlıq Təşkilatına (İƏT) çevrilən İslam Konfransı Təşkilatı (İKT) da bu dəyişikliklərdən kənarda qalmayıb.

Qeyd edək ki, beynəlxalq birliklər arasında İKT ən mürəkkəb və mübahisəli təşkilatlardan biridir. Bu təşkilatın yaranma tarixi və fəaliyyət prinsipləri müasir beynəlxalq münasibətlər sistemində İKT missiyasının əhəmiyyətini anlamağa imkan verir. Bildiyiniz kimi, 1926-cı ildə "Ümumdünya İslam Konfransı" yaradıldı və onun ilk iclası Məkkədə keçirildi. Daha sonra Qüds, Kəraçi və Moqadişuda sessiyalar çağırıldı. Sessiyaların qeyri-müntəzəm keçirilməsinə baxmayaraq təşkilatın xarakteri və sonrakı fəal mövqeyi məhz bu forumlarda müəyyən edilirdi [1].

1953-cü ildə bu təşkilatın yerində "İslam Konfransı Forumu" yaradıldı, daha sonra 1955-ci ildə "Ümumi İslam Konfransı" və konfrans çərçivəsində bir sıra digər təşkilat və strukturlar yaradıldı. Lakin obyektiv səbəblərdən onların heç biri beynəlxalq siyasi proseslərə kifayət qədər təsir

göstərmədi. Bu mərhələ qarşılıqlı fəaliyyət və əməliyyat prosedurlarının əlaqələndirilməsi mexanizmlərinin formalaşması və fəal axtarışı mərhələsi idi.

Müsəlman dünyasında qlobal hadisələrə təsir etmək məqsədi ilə vahid İslam siyasi platformasına əsaslanan sıx əməkdaşlıq üçün bütün İslam dövlətlərini birləşdirə biləcək bir təşkilata ehtiyac getdikcə daha çox hiss olunurdu.

Müsəlman dünyasının özü mürəkkəb və müxtəlifdir. Sosial-iqtisadi səviyyə və hökumət modelləri baxımından heterogendir. Bununla belə, mövcud olan, bəzi əhəmiyyətli fərqlərə baxmayaraq İslam ölkələri Fələstin məsələsinin həlli ilə bağlı ən mühüm məqsədlərindən birinə nail olmaq üçün tarixinin kritik anlarında birləşməyə müvəffəq oldular.

1962-ci il təşkilatın taleyində dönüş ili oldu. Qüdsdə naməlum şəxslər bütün müsəlmanlar üçün müqəddəs sayılan Əl-Əqsa məscidini yandırdılar. Bu hadisə bütün İslam dünyasını sarsıtdı və həmin ilin sentyabrında Səudiyyə Ərəbistanının kralı Feysəlin təşəbbüsü ilə 26 müsəlman dövlətinin başçısı Rabatda (Mərakeş) toplandı. Məscid ziyarətgahına hücumu pisləyərək, əsas məqsədi bütün dünyada İslamı dəstəkləmək, Fələstin xalqının, eləcə də müsəlman əhalisinin hüquq və mənafelərini birgə qorumaq olan yeni struktur yaratmaq qərarına gəldilər. 1970-ci ildə keçirilən iclasda yeni beynəlxalq strukturun - İslam Konfransı Təşkilatının formalaşdırılması rəsmiləşdirildi. Bir sıra güclü ölkələrə malik olması bu təşkilatın beynəlxalq siyasi və iqtisadi çəkisini gücləndirsə də İƏT-in ona xas olan müəyyən daxili zəif cəhətləri onun potensial imkanlarını azaldır (2, 33).

İKT-nin güclü tərəflərinə aşağıdakılar daxildir: İslam regionunun bəzi digər ölkələri ilə birlikdə böyük strateji xammal ehtiyatlarına - neft və təbii qaza nəzarət edən zəngin neft hasil edən dövlətlərin İƏT-də liderlik rolu; Qərb ölkələrinin iqtisadiyyatlarına neft dollarlarının əhəmiyyətli hissəsinin investisiyası hesabına Qərbi Avropa və Şimali Amerikaya müəyyən təsir rıçaqlarının olması; müasir beynəlxalq münasibətlərə təsir etmək üçün heç də az əhəmiyyət kəsb etməyən əhəmiyyətli resurslar və geniş ərazi [3, 61].

İKT-nin beynəlxalq teoloji və dini qeyri-hökumət birlikləri ilə sıx əlaqə saxlaması faktını nəzərdən qaçırmaq olmaz. Müsəlman dini liderləri İƏT-in əməli fəaliyyətini ideoloji cəhətdən təsdiqləyir, onun dindarların geniş kütlələri arasında nüfuzunu artırır. Dini islami mövqelərdən inkişaf etdirilən və həyata keçirilən beynəlxalq İslam həmrəyliyi prinsipləri dünyanın 60-dan çox ölkəsində dindar kütlələrinin İƏT siyasətinə dəstəyini səfərbər etmək üçün teoloji əsas yaradır ki, bu da onlara vahid cəbhə nümayiş etdirməyə imkan verir. Müsəlman dünyasının Qərbdən və onunla əlaqələrdən təcrid olunmasının teoloji əsaslandırılmasını istisna edə bilməsək də, fikrimizcə, beynəlxalq münasibətlərin qloballaşması şəraitində əməkdaşlıq və mehriban qonşuluq istəyinin ümumi fonuna mənfi təsir göstərə bilər.

İKT potensialının güclü tərəfləri ilə yanaşı, təşkilatın fəaliyyətinə müsəlman dünyasındakı hakim rejimlərin ictimai-siyasi strukturlarının və ideoloji oriyentasiyalarının ifrat heterojenliyi də təsir edir. Onlar ən mühüm beynəlxalq və xarici siyasət problemlərinə müxtəlif yanaşmalar, fundamentalistlərlə mötədil baxış tərəfdarları arasında daxili və xarici siyasətdə islami prinsiplərdən istifadə forma və üsullarının fərqliliyinə görə bölünür. İƏT-in istər siyasət, istərsə də iqtisadiyyat sferasında inkişafı üçün dəqiq ümumi strategiyanın olmaması və kəskin ziddiyyətlərin davam etməsi bundan irəli gəlir.

Beləliklə, müsəlman dünyasında iki əsas cərəyan - bir tərəfdən müsəlman dövlətlərinin konsolidasiyası və onların dünya siyasətində və iqtisadiyyatında təcrid olunması tendensiyası, digər tərəfdən isə İslam regionunun ideoloji, siyasi, iqtisadi və sosial zəmində daxili təbəqələşməsi, parçalanması meylləri mövcuddur. Hər iki tendensiya İKT-nin fəaliyyətində öz əksini tapmışdır [4].

Bu gün İslam Konfransı Təşkilatı ən böyük və ən nüfuzlu rəsmi hökumətlərarası müsəlman beynəlxalq təşkilatıdır. Hazırda o, 1,4 milyarddan çox əhalisi olan 57 ölkəni birləşdirir. İƏT iştirakçı ölkələrin sayına görə dünyada BMT-dən sonra ikinci institusional təşkilatdır. İƏT-in məqsədləri İslam həmrəyliyinin və üzv dövlətlər arasında siyasi, iqtisadi və sosial sahələrdə genişmiqyaslı əməkdaşlığın gücləndirilməsi, fundamental qanunlara əsaslanan və İslam dəyərlərinin qorunub saxlanmasına yönəlmiş sülhsevər siyasətin həyata keçirilməsi, xalqların azadlığını və müstəqilliyini müdafiə etməkdə, habelə müsəlmanların dəstəklənməsi üzrə birgə fəaliyyətlərdən ibarətdir. Xüsusilə, Fələstin xalqının müstəqil dövlət yaradılmasında və onun ərazisində İslam ziyarətgahlarının qorunub saxlan-

masında göstərilən dəstəyi misal gətirmək olar. Bildiyiniz kimi, bu məsələlər qloballaşmanın indiki şəraitində öz aktuallığını itirməmiş və beynəlxalq gündəliyi müəyyən edir.

İƏT-in əsas prinsipləri tam bərabərlik, hər bir xalqın öz müqəddəratını təyinetmə hüquqlarına hörmət, daxili işlərə qarışmamaq, dövlətlərin ərazilərinin suverenliyinə, müstəqilliyinə və bütövlüyünə hörmət etmək, İƏT üzvü olan ölkələr arasında mübahisəli məsələlər sülh yolu ilə danışıqlar, vasitəçilik və ya arbitraj, güc tətbiq etməmə və ya onun tətbiqi ilə hədələmə yolu ilə həll edilir. Bütün bunlar BMT-nin təməl prinsiplərinə tam uyğundur.

İKT-nin fəaliyyəti BMT tərəfindən tanınıb. Beləliklə, İƏT Baş Assambleyanın sessiyalarında və işində müşahidəçi qismində iştirak etməyə dəvət olunub. Bu iki təşkilat arasında əməkdaşlığın mühüm aspektlərindən biri birgə sülhməramlı səylərdir. İKT İslam dünyası üçün bir növ kiçik BMT-dir. Belə ki, burada da geniş əlaqəli qurumlar şəbəkəsi yaradılmışdır. Bu baxımdan Dünya Bankının analoqu olan İslam İnkişaf Bankını, fəaliyyətinə görə YUNESKO, Beynəlxalq Qızıl Aypara təşkilatlarına yaxın olan İSESCO kimi tanınmış qurumu və s. misal göstərmək olar. Bütün bunlar Azərbaycana ölkənin inkişafı və xarici dünya ilə təmasları üçün faydalı olan geniş spektrli məsələlərin həllində iştirak etmək imkanı verir. Müxtəlif təsir mərkəzlərinin fəaliyyət proseslərində fəal iştirak prinsipimiz burada özünü göstərir.

Bu günkü İƏT nəhəng və hələ də istifadə edilməmiş potensiala malik müasir, gələcəyə yönəlmiş bir təşkilatdır. Baş Katiblik və İKT strukturları özləri yüksək peşəkar səviyyədə və beynəlxalq standartlara uyğun fəaliyyət göstərirlər. Sənəd dövriyyəsi 5 dildə aparılır, o əsas dil ingilisdir (rus dilindən də istifadə olunur). İƏTY-in İşində qabaqcıl texnologiyalardan, müasir idarəetmə metodlarından, İT həllərindən geniş istifadə olunur. Qarşıya qoyulan vəzifələrə nail olmaq üçün qeyri-standart yolların daim axtarışı aparılır və təşkilatın idarəetmə korpusunda işləmək üçün ən yaxşı intellektual qüvvələr cəlb olunur.

İKT-nin siyasi çəkisi və əhəmiyyəti həm də onunla müəyyən edilir ki, dünyanın karbohidrogen enerji ehtiyatlarının üçdə ikisindən çoxu müsəlman dövlətlərinin ərazilərində cəmləşib. Neftin qiymətinin qalxmasından sonra bu dövlətlərin hakim dairələri beynəlxalq iqtisadiyyata və dünya sərvətlərinin ədalətli bölüşdürülməsinə təsir rıçaqlarından fəal şəkildə istifadə edirlər [4, 78].

İƏT dini zəmində inteqrasiyanın bir növ nümunəsidir, açıq-aşkar islami xarakter daşıyır və beynəlxalq və daxili münaqişələrdə bu və ya digər şəkildə yalnız müsəlman tərəfini dəstəkləyir, çünki onun hansı ərazidə yaşamasından asılı olmayaraq dünya müsəlmanlarına yardım etmək hüququ var.

2011-cü ilin iyununda Qazaxıstanın paytaxtı Astanada İslam Konfransı Təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 38-ci iclası keçirilib. İclasda üzv ölkələrin üzləşdiyi aktual problemlərə, eləcə də əməkdaşlığın daha da gücləndirilməsi imkanlarına baxılması nəzərdə tutulmuşdu (5).

İKT Xarici İşlər Nazirləri Şurasının sessiyası nəticəsində Astana Bəyannaməsi və 100-dən çox qətnamə qəbul edildi. İşində İƏT-ə üzv 56 ölkənin iştirak etdiyi İKT Xarici İşlər Nazirləri Şurasının sessiyasında İKT-nin adının İƏT adlandırılması qərara alınmışdır. Təşkilatın Loqosu ,məqsəd və vəzifələri dəyişsə də, maraq dairəsi də xeyli genişlənmişdir. İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin 38-ci sessiyasında müsəlman dünyasının yeni inkişaf erası astanasında olması ilə bağlı konsensus əldə olundu. Şimali Afrika və Yaxın Şərqdə baş verən dramatik hadisələr əsaslı, sosial, iqtisadi islahatlara, eləcə də modernləşməyə ehtiyacın bariz təzahürüdür. Sədr ölkə kimi Qazaxıstan 2005-ci ildə qəbul edilmiş və müsəlman dünyasının çağırış və tələblərinə cavab verən İƏT-in 10 illik Fəaliyyət Planı əsasında modernləşmə yolu ilə İslam dünyasını daha yüksək səviyyəyə çatdırmaqda öz məsuliyyətini başa düşür. Xarici İşlər Nazirləri Şurasının bu iclasının sessiyasının gündəliyi kifayət qədər əhatəli idi. Siyasi Komitədə çərçivəsində Fələstin və Ərəb-İsrail münaqişəsi ilə bağlı məsələlər, müsəlman dünyasının müxtəlif regionlarında baş verən digər hadisələr, Əfqanıstanın sosial-iqtisadi reabilitasiyasına yardımın göstərilməsi məsələləri, digər regional təşkilatlarla geniş əməkdaşlıq imkanları, tərksilah, terrorizm, ekstremizmlə mübarizə, narkotiklərin qeyri-qanuni ticarəti, BMT-də islahatlar, dinlərə və islamofobiyaya qarşı qarayaxma kampaniyasına qarşı hər bir fərdin mübarizə hüququ kimi məsələlərə baxıldı.

Ən mühüm qərarlardan biri isə İnsan Hüquqları üzrə müstəqil Daimi Komissiyanın yaradılması oldu. Xüsusilə vurğulanmalıdır ki, İƏT-ə üzv dövlətlər təşkilatın beynəlxalq təhlükəsizliyin

möhkəmləndirilməsi, sülh və münaqişələrin həlli sahəsində potensialını daha da öyrənməyə hazır olduqlarını bildiriblər. Bu sessiyada Yaxın Şərqdə nüvə silahından azad zonanın yaradılması üzrə 2012-ci ildə keçiriləcək beynəlxalq konfransa hazırlıqla bağlı bütün İƏT-ə üzv ölkələrin fəaliyyətlərinin əlaqələndirilməsinə böyük diqqət yetirilib. Təşkilatdakı müşahidəçi ölkələrlə bağlı müvafiq tənzimləyici qaydalar qəbul edilib, bu dövlətlərin hüquq və vəzifələri aydın şəkildə müəyyən edildi.

İqtisadi sessiyalarda üzv dövlətlər arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi, ərzaq təhlükəsizliyi kontekstində kənd təsərrüfatı potensialının inkişafı, nəqliyyat-maliyyə sektorunda əməkdaşlığın genişləndirilməsi və gələcək əməkdaşlıq məsələləri kimi aspektlərə diqqət yetiridi. İƏT Xarici İşlər Nazirləri Şurasının iştirakçıları mədəni və sosial sahədə, eləcə də İslam ziyarətgahlarının mühafizəsi sahəsində gələcək addımlar barədə razılığa gəldilər. Eyni zamanda İslam Əməkdaşlıq Təşkilatının Mərkəzi Asiya üçün Fəaliyyət Planı qəbul edildi ki, bu da regionun sosial-iqtisadi, mədəni və humanitar inteqrasiyası baxımından kifayət qədər mühüm irəliləyişdir.

Üzv dövlətlər tərəfindən Dövlət Başçılarının Zirvə Toplantısını əvvəllər qərarlaşdırıldığı kimi üç ildə bir dəfə deyil, iki ildə bir dəfə keçirməyi qərara alındı. Xarici İşlər Nazirləri Şurasının növbəti sessiyasının Səudiyyə Ərəbistanının Cibuti şəhərində keçirilməsi qərarlaşdırıldı. İKT Xarici İşlər Nazirləri Şurasının yekun sənədi 38-1-ci sessiyanın nəticələrini və ən mühüm məsələləri əks etdirən qəbul edilmiş Astana Bəyannaməsi olmuşdur (5). Qazaxıstanın İƏT-də sədrliyi Təşkilatın yeni adı və yeni loqosu - İƏT haqqında üzv dövlətlərin tarixi qərarı ilə başladı.

İƏT-ə üzv dövlətlərin xarici işlər nazirlərinin Astana sessiyasının yekunları açıq şəkildə göstərdi ki, açıq müzakirələr və mənalı dialoq vasitəsilə təşkilatın fəaliyyətinin genişləndirilməsi, ona daha səmərəli şərait yaratmaq üçün gələcək addımları və tədbirləri müəyyən etmək olar.

Təşkilatda iştirak edən xarici dövlətlərin nazirlərinin 38-ci sessiyasının nəticələri, İslam Konfransı Təşkilatının adının İslam Əməkdaşlıq Təşkilatı adlandırılması ilə bağlı bütün ölkələrin əldə etdiyi razılaşma həm təşkilat daxilində, həm də əlaqələrdə daha sıx qarşılıqlı fəaliyyət istəyini əyani şəkildə nümayiş etdirdi. İƏT-ə üzv olmayan dünya ölkələri ilə XXI-ci əsrdə özünü tanıdan dünya proseslərinin qarşılıqlı asılılığını və qarşılıqlı əlaqəsini əks etdirir.

Təşkilatın beynəlxalq aləmdə rolunun gücləndirilməsi istiqamətində İƏT-ə üzv dövlətlərin ümumi səylərinin intensivləşməsinin bariz nümunəsi Somalidəki humanitar böhranın aradan qaldırılması üçün İƏT-ə üzv dövlətlərin humanitar və maliyyə yardımı göstərilməsi barədə qərar ola bilər.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin Astanada İƏT Katibliyinin 2011-ci ilin avqustunda müqəddəs Ramazan ayı ərzində geniş ictimai kampaniya keçirmək qərarı təkcə İƏT-ə üzv dövlətlərin hökumətləri arasında deyil, həm də müsəlman ölkələrinin sadə vətəndaşları arasında İslam həmrəyliyinin bariz təzahürü oldu. Müsəlman dövlətlərinin maliyyə yardımının ümumi məbləği 350 milyon ABŞ dollarından çox olub (5). Şübhəsiz ki, bunlar XXI əsrdə müsəlman dövlətlərinin konsolidasiyasını həqiqətən aktivləşdirmək üçün ilk addımlardır, lakin onlar göstərir ki, İƏT-ə üzv dövlətlərin istəyi və qarşılıqlı fəaliyyəti ilə təşkilatın beynəlxalq aləmdə nüfuzunu yüksəltmək və dünya problemlərinin və böhranlarının aradan qaldırılmasında səmərəli əməkdaşlığa başlamaq mümkündür.

İƏT-in fəaliyyətə başlaması həm də İslam İnkişaf Bankının (İİB), Tangierdəki İslam Ticarətinin İnkişafı Mərkəzi ilə İslam Ticarət və Sənaye Palatasının, Cenevrə və Baham adalarında mərkəzləri olan İslam İnvestisiya Komissiyasının və İslam İnkişaf Bankının rolunun gücləndirilməsi deməkdir. İƏT-in aparıcı institutlarından biri olan İslam İnkişaf Bankı ilə əməkdaşlıq sistemli şəkildə inkişaf edir (2, 104).

İƏT ilə təhsil, mədəniyyət, elm və texnologiya sahələrində əməkdaşlığın artırılması da prioritet istiqamətlərdəndir. Bu baxımdan İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) ilə sıx əməkdaşlığın qurulması müsəlman ölkələrinə mədəni irs abidələrinin qorunub saxlanılması və bərpası, dillərin öyrənilməsi və tədrisi, tarix, tarix elmləri sahəsində təcrübə mübadiləsi və İslam dünyası ölkələrinin mədəniyyəti kimi milli layihələri uğurla həyata keçirməyə imkan verir. Müxtəlif mədəniyyətlərin və sivilizasiyaların dəyər meyarlarında mövcud ziddiyyətlərin aradan qaldırılması problemlərinin aktuallığını nəzərə alaraq, İKT-nin hazırda dünyada mövcud olan reallıqlara uyğunlaşdırılması üçün islahatların aparılması vacib görünür (3, 50).

Nəticə. İKT-nin İƏT-yə çevrilməsi yeni xarici siyasət paradiqmasının formalaşması üçün ilkin şərtlər yaratmış oldu. Birlikdə götürsək, İƏT-ə üzv olan hər bir dövlətin bu strukturlarında fəal

iştirakı ölkənin sabit və mütərəqqi daxili inkişafının əsas elementinə çevrilir və ümumilikdə qlobal hadisələrə daha da fəal təsir göstərmək, mübahisələr və münaqişələri, milli maraqları təşviq etmək beynəlxalq problemlərin həllinə töhfə verməklə əvəzolunmaz çoxtərəfli təcrübə qazanmaq imkanı yaradır.

ƏDƏBİYYAT

1. Попов В.В. Исламский фактор в мировой политике / Азия и Африка сегодня. №1, 2004.
2. Казахстан в современном мире: реалии и перспективы. – Алматы: КИСИ при Президенте РК, 2008. – 348 с.
3. Eyyubova S.E. İslam konfransı təşkilatı beynəlxalq münasibətlər sistemində (1969-2007). Bakı, Elm, 2009, 173 s.
4. Иванова И.И. Межгосударственные региональные организации Азии в международных отношениях. М.,1991, 222 с.
5. Организация Исламская Конференция: поиски реформ по всему мусульманскому миру. - http://www.islam.ru/pressclub/analitika/oicfindref/ [19.10.2023].
6. Гусев М.Н. Организация «Исламская конференция» на перепутье. - http://www.iimes.ru/rus/stat/2007/06-03-07.htm [19.10.2023].

САМУДА ИСКЕНДЕРОВА
Преподаватель Бакинского государственного университета

ОТ ОРГАНИЗАЦИИ ИСЛАМСКОЙ КОНФЕРЕНЦИИ К ОРГАНИЗАЦИИ ИСЛАМСКОГО СОТРУДНИЧЕСТВА

Преобразование ОИК в ОИС стало важным шагом для формирования новой внешнеполитической парадигмы. Активная деятельность каждого государства в ОИС становится фундаментальным элементом стабильного развития страны и предоставляет возможность для разрешения международных конфликтов.

Ключевые слова: внешняя политика, современные международные отношения, Организация Исламского Сотрудничества, интеграция.

SAMUDA ISKENDEROVA
Lecturer of Baku State University

FROM ORGANIZATION ISLAMIC CONFERENCE TO ORGANIZATION ISLAMIC COOPERATION

The transformation from Organization of Islamic Conference to Organization of Islamic Cooperation became the important step of developing new paradigm of external policy. The active role of every state in OIC will become the fundamental element of stable development of the countries and give an opportunity for international conflicts regulation.

Keywords: foreign policy, contemporary international relations, Organization Islamic Cooperation, integration.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 oktyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. İsmayıl Məmmədov.